*G.Babaxanlı. Mirzə Mehdi Şükuhi yaradıcılığı Sabirəqədərki satirik ədəbiyyatımızda bir mərhələ kimi // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.12-16.*

UOT: 8-1.512.162

**Gülbəniz Babaxanlı**
*filologiya üzrə elmlər doktoru*
*AMEA Hüseyn Cavidin Ev Muzeyi*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: huseinjavid@gmail.com*

# MİRZƏ MEHDİ ŞÜKUHİ YARADICILIĞI SABİRƏQƏDƏRKİ SATİRİK ƏDƏBİYYATIMIZDA BİR MƏRHƏLƏ KİMİ

**Xülasə**

Mirzə Mehdi Şükuhi XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Qasım bəy Zakir tərəfindən əsası qoyularaq Mirzə Baxış Nadim və Seyid Əzim Şirvani kimi ədiblərimiz tərəfindən inkişaf etdirilən ictimai satira Mirzə Mehdi Şükuhi yaradıcılığında daha da təkmilləşmişdir. Onun kinayə və gülüş dolu şeirləri anadilli ədəbiyyatımızda ictimai satiranın Mirzə Ələkbər Sabir və Mirzəli Möcüz yaradıcılığına qədərki nadir nümunələrindəndir. Şükuhinin cəmiyyətdəki haqsızlıqlara və sosial ədalətsizliyə, dini xurafata və əxlaq normalarının pozulmasına qarşı etirazlarını əks etdirən əsərləri Azərbaycan satirik şeirinin ilk nümunələrindəndir. Bu əsərlər həcv sərhədini tam aşmasa da, Seyid Əzim satiralarına yaxınlaşması ilə diqqətəlayiqdir.

Mirzə Mehdi Şükuhinin satirik irsi sovet dövründə araşdırılmışdır. Lakin tədqiqatçılar hakim ideologiyanın təsiri altında bəzən ifrata varmaq məcburiyyətində qalmış, hətta onu ateist kimi təqdim etmişlər. Buna görə də onun əsərlərinin müasir əlifba ilə nəşri və yeni təfəkkür işığında kompleks tədqiqi ədəbiyyatşünaslığımız qarşısında duran aktual problemlərdəndir.

***Açar sözlər:*** *Mirzə Mehdi Şükuhi, satira, yumor, həcv, taziyanə*

**Giriş**

*Həyatın və cəmiyyətin ziddiyyətləri qarşısında ədəbiyyatımızda tənqidi-satirik ruhun gücləndiyi XIX əsrin yetirdiyi Azərbaycan şairlərindən biri də Mirzə Mehdi Şükuhidir. Lakin tənqidi-realist poeziyamızın başqa nümayəndələrinə nisbətən Şükuhi yaradıcılığı az tədqiq edilmiş və onun çoxcəhətli yaradıcılığı müxtəlif tədqiqat bucaqlarından araşdırılmamışdır. Məmmədəli Müsəddiqin şair haqqındakı monoqrafiyasını, Cəfər Xəndanın, Əfsanə İsmayılo-*

*vanın məqalələrini və Kamran Məmmədovun Şükuhi satiraları barədə tədqiqatını çıxmaqla şairin yaradıcılığı hərtərəfli təhlil obyektinə çevrilməmişdir.*

*Şükuhi satiralarının elmi dəyərləndirilməsi – böyük zəhmət və uzun müddət tələb edən bir işdir. Ona görə də bu məqalədə əldə olan materiallar əsasında şairin ictimai satirasının yalnız bəzi cəhətlərinə toxunmaqla kifayətlənmişik.*

Mirzə Mehdi Şükuhinin (1829-1896) satirik irsi Güney Azərbaycan ədəbiyyatı üçün mühüm ədəbi hadisə olsa da, sözsüz ki, öz ictimai məzmununa görə Mirzə Ələkbər Sabir və Mirzə Əli Möcüz satirası səviyyəsinə yüksələ bilməmişdir. Çünki M.M.Şükuhi satiralarının əksəriyyətini cəmiyyətdəki bu və ya digər mürtəce şəxsiyyətə qarşı çevrilmiş fərdi, konkret ünvanlı həcvlər təşkil edir. Bu cəhətdən onun satiralarını müəyyən dərərcədə Sabir taziyanələrinə bənzətmək olar. Taziyanələrdə olduğu kimi bunlarda da konkret olaraq kimin qamçılandığı oxucuya aydın olur. Lakin taziyanələrdə müşahidə olunan yüksək bədii ümumiləşdirmə gücü bunlarda özünü büruzə vermir.

Mirzə Mehdi Şükuhi öz yaradıcılıq təcrübəsi əsasında bu cür fərdi həcvlərlə məqsədə çatmağın, cəmiyyəti islah etməyin çətin olduğunu anlayaraq yazırdı:

*Ruzi-əvvəl bu çərxi-gəcrəfdar,*
*Mənə çün eyləmişdi şeri-şüar.*
*Çox səxini, kərimi mədh etdim,*
*Çox xəsisi, ləini qədh etdim.*
*Səyimi gördüm aqibət bica,*
*Çün desən yüz qəsideyi-sərra,*
*Nə ona hiç bir kəs eylər guş,*
*Nə alır bir filusə səbzifüruş*[1]. [3]

Ayrı-ayrı həcvlərlə ictimai eybləri düzəldə biməyəcəyini görən şair daha təsirli satirik janrlara – mənzum hekayələrə, təmsillərə, lətifələrə və kiçik nəsr nümunələrinə müraciət etmişdir. Bu cəhətdən tədqiqatçılar onun farsca yazılmış kiçik hekayələrinin xüsusilə qiymətləndirirlər. Onu da qeyd edək ki, tədqiqatlarda Şükuhinin bu cür hekayələrinin ictimai məzmununu bəzən süni surətdə qabartmaq meylinə də rast gəlirik ki, bu da sovet dövrünün ideoloji ənənələrindən və tədqiq metodologiyasından irəli gəlirdi. Elə bu səbəbdəndir ki, bəzən Şükuhinin incə yumoru kəskin ictimai satira kimi qələmə verilir. Bunu xüsusilə şairin ateist görüşlərini süni surətdə qabartmaq üçün etmişlər. Məsələn, Şükuhinin belə bir lətifəvari hekayəsi var:

*"İki qadın söhbət edirdi:*

*- Allah biz arvadların haqqında zorakılıq etmişdir. Bir kişiyə dörd arvad almağa icazə verib, vərasəlikdə bir kişini iki arvada bərabər tutmuşdur. Qalan işlərdə də belədir.*

*İkinci arvad dinləndi:*

*- Yüz iyirmi dörd min peyğəmbər, on iki imam və onların ətrafına toplaşanların hamısı kişidir. İlk dəfə şəriət qanunlarını yazmaq üçün Allahın evinə yığılanda, orada arvadların*

[1]Şükuhi əsərlərindən verilən örnəklər M.Müsəddiqin "Mirzə Mehdi Şükuhi: həyat və yaradıcılığı" monoqrafiyasından götürülmüşdür.

*nümayəndəsi olmayıbdır. Ona görə də kişilər bütün məsələləri öz xeyirlərinə həll ediblər. Görünür, Allah da kişilərin tərəfdarıdır. Bunun üçün də biz bütün çətinliklərə dözməyə məcburuq".* [3]

Əlbəttə, professor Kamran Məmmədovun yazdığı kimi, bu hekayədə şair *"Allahın zorakılığından, gülünc işlərindən, öz bəndələri arasında ayrıseçkilik saldığından, yüz iyirmi dörd min peyğəmbərin, on iki imamın ağılsızlığından gülə-gülə danışmağı"* xəyalına belə gətirmir [Bax: 4]. Burada olsa-olsa, qadın sadəlövhlüyünə incə bir yumorla yanaşı, qadın hüquqsuzluğuna da bir toxunma axtarmaq olar.

Şükuhi yaradıcılığının, xüsusən satirasının təhlili zamanı bu cür ifratavarma hallarına tez-tez təsadüf etmək mümkündür.

Şükuhinin bir sıra satiralarında fərdin və cəmiyyətin elə nöqsan və eyblərinə toxunulur ki, onlar öz aktuallığını indinin özündə belə itirməmişdir. Bu eyiblər arasında ən başlıcası kimi rüşvətxorluğu göstərmək olar. Şükuhi rüşvətin qorxunc bir bəla kimi cəmiyyətin sosial-mənəvi dayaqlarını sarsıtdığını anlayaraq mənfi qəhrəmanın dilindən yazırdı:

*Rüşvət allam hezar şivə ilə,*
*Keçər ömrüm müdavi rüşvə ilə.* [3]

Qeyd edək ki, göstərilən dövrdə rüşvət taunu təkcə Güney Azərbaycanı bürüməmişdi. Eyni mənzərəni Arazın bu tayında da müşahidə edən Seyid Əzim Şirvani deyirdi:

*Hər kəsi məmur edər bir xidmətin əncaminə,*
*Talibi-rüşvət olub, həm rüşvəti eylər şüar.* [5]

Həmin dövrdən 150 ildən artıq zaman keçsə də, dəhşətli rüşvət xəstəliyi ilə amansız mübarizə aparılsa da, hələ də cəmiyyətimizdə bu bəladan əziyyət çəkən insanlara rast gəlmək olur. Bu isə klassiklərimizin satirik əsərlərinin yeni-yeni nəşrlərinə ehtiyac olduğunu bir daha sübut edir.

Mirzə Mehdi Şükuhinin əsərlərinin yalnız tədqiqatçılar tərəfindən istifadə edilən Təbriz nəşrindən istifadə edib seçilmiş əsərlərini nəşrə hazırlamaq ehtiyacı da özünü daha ciddi şəkildə büruzə verir. Belə ki, Şükuhinin əsərlərinin müasir əlifba ilə nəşri Mirzə Ələkbər Sabir sələflərinin irsinin daha dərindən öyrənilməsi üçün zəngin material verə bilər. Bu, ədəbiyyat tariximiz üçün də faydalı olar, yeni nəslin şairin yaradıcılığındakı bir çox problemləri daha obyektiv təhlili üçün də imkan yaradar. Çünki klassik poeziya və xalq şeri ənənələrini ən yaxşı şəkildə öz yaradıcılığında birləşdirmiş Mirzə Mehdi Şükuhi Azərbaycan ədəbiyyatının əsrlər boyu yaşayacaq nümayəndələrindəndir.

## Nəticə

*Mirzə Mehdi Şükuhi XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. Qasım bəy Zakir tərəfindən əsası qoyularaq Mirzə Baxış Nadim və Seyid Əzim Şirvani kimi ədiblərimiz tərəfindən inkişaf etdirilən ictimai satira Mirzə Mehdi Şükuhi yaradıcılığında daha da təkmilləşmişdir. Onun kinayə və gülüş dolu şeirləri anadilli*

*ədəbiyyatımızda ictimai satiranın Mirzə Ələkbər Sabir və Mirzəli Möcüz yaradıcılığına qədərki nadir nümunələrindəndir. Şükuhinin cəmiyyətdəki haqsızlıqlara və sosial ədalətsizliyə, dini xurafata və əxlaq normalarının pozulmasına qarşı etirazlarını əks etdirən əsərləri Azərbaycan satirik şeirinin rüşeymləridir. Bu əsərlər həcv sərhədini tam aşmasa da, Seyid Əzim satiralarına yaxınlaşması ilə diqqətəlayiqdir.*

*Mirzə Mehdi Şükuhinin satirik irsi sovet dövründə qismən araşdırılmışdır. Lakin tədqiqatçılar hakim ideologiyanın təsiri altında bəzən ifrata varmaq məcburiyyətində qalmış, hətta onu ateist kimi təqdim etmişlər. Buna görə də onun əsərlərinin müasir əlifba ilə nəşri və yeni təfəkkür işığında yenidən kompleks tədqiqi ədəbiyyatşünaslığımız qarşısında duran aktual problemlərdəndir.*

**Ədəbiyyat siyahısı:**

1. Cənubi Azərbaycan şeiri antologiyası: XIX-XXI əsrlər / tərt., transfon., çapa haz., ön söz: V.Əhməd, Bakı: Ecoprint, 2018, 671 səh.
2. İsmayılova Əfsanə. Mirzə Mehdi Şükuhinin məsnəvilərində sosial mühitin tənqidinin forma üsulları // Elmi əsərlər /AMEA-nın M. Füzuli adına Əlyazmalar İnsititutu, 2019, № 2, səh. 61-66.
3. Məmmədli Müsəddiq. Mirzə Mehdi Şükuhi: həyat və yaradıcılığı, Bakı: Yazıçı, 1988, 126 səh.
4. Məmmədov Kamran. XIX əsr Azərbaycan şeirində satira, Bakı: Elm, 1975, 272 səh.
5. Seyid Əzim Şirvani. Əsərləri: 3 cilddə, II cild, tərt. S. Rüstəmov, Bakı: AzSSR EA, 1969, 65 səh.
6. Şahaliyeva Mətanət. Cənubi Azərbaycan poeziyasının inkişaf problemləri (XIX əsrin yarısı), ön söz: T.Kərimli, Bakı: Elm və təhsil, 2019, 250 səh.

**Gulbaniz Babakhanli**

**The works of Mirza Mehdi Shukuhi as a stage in pre-Sabirian satirical literature**

Mirza Mehdi Shukuhi is one of the prominent representatives of the literature of South Azerbaijan of the 19th century. The social satire, laid down by Gasim bey Zakir and elaborated by Mirza Bakhish Nadim and Seyid Azim Shirvani, was further developed in the work of Mirza Mehdi Shukuhi. His poems, rich in allegories and ridicule, constitute a unique example of social satire in our literature, which existed even before Mirza Alakbar Sabir and Mirza Ali Mojuz. Shukuhi's works, reflecting his protest against the injustice and social disparity existing in society, as well as religious prejudices and violations of moral norms, are among the first examples of Azerbaijani satirical poetry. Although these works fail to meet the definition of hajv, they are notable for bearing resemblance to the satires of Seyid Azim.

Mirza Mehdi Shukuhi's satirical legacy was studied in Soviet times. But the prevailing ideology sometimes made researchers be extreme in discourse, even presenting it as atheistic one. Therefore, the publication of his works using an existing alphabet and their

comprehensive study considering the new ways of thinking are the topical issues faced by our literature scholars.

***Keywords:*** *Mirza Mehdi Shukuhi, satire, humor, hajv, taziyane*

Filologiya üzrə elmlər doktoru
**Xatirə Bəşirli** tərəfindən çapa tövsiyə olunmuşdur.